# Həftəlik
# *Bülleten*



**094**
**30 May 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az   www.atmia.az

**Azərbaycanda tikinti layihələrinin ekspertizadan keçirilməsi üzrə bəzi hərəkətlər elektronlaşdırılıb.**

Prezident İlham Əliyev "Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" 30 may 2023-cü il tarixli qanunun icrası ilə əlaqədar bəzi fərmanlarında dəyişiklik edib.

Dəyişikliyə əsasən, "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları" yenilənib.

Belə ki, bundan sonra tikintiyə icazə icraatı çərçivəsində tikinti layihələrinin ekspertizadan keçirilməsi üzrə bəzi hərəkətlər şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçiriləcək.



**Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikincidir – Nazir**

190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikinci sənaye parkıdır.

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Prezident Administrasiyasının və işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının üzvlərinin Sənaye Parkında sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanışlıq zamanı bildirib.

"Burada ümumilikdə 31 olmaqla, 27 müəssisə rezident, 4 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb.

Sənaye Parkında divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan "BAFCO İnvest" məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub", - nazir bildirib.



## Bakıda inşaat işlərinə nə qədər vəsait xərclənib?

2025-ci ilin yanvar-mart aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 85,5 faizini inşa, yenidənqurma və bərpa, 6,6 faizini əsaslı təmir, 4 faizini cari təmir, 3,9 faizini isə sair tikinti işləri təşkil edib. Bu barədə məlumat Bakı şəhər Statistika İdarəsinin 2025-ci ilyanvar-mart ayları üçün sosial, iqtisadi inkişaf göstəricilərində öz əksini tapıb. Məlumata əsasən,ümumi inşaat işlərinin 91,6 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirib.

2025-ci ilin yanvar-mart aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin dəyəri:

| | **Cəmi, min manat** | **Əvvəlki ilin müvafiq dövrünə nisbətən, %-lə** | | **Cəmi, min manat** | **Əvvəlki ilin müvafiq dövrünə nisbətən, %-lə** |
|---|---|---|---|---|---|
| Bakı şəhəri | 2 018 981,8 | 103,9 | Nəsimi | 342 299,0 | 86,3 |
| Binəqədi | 260 496,4 | 65,6 | Nizami | 165 527,4 | 80,9 |
| Xətai | 363 139,0 | 101,4 | Sabunçu | 272 012,0 | 3,0 d. |
| Xəzər | 36 388,5 | 2,4 d. | Səbail | 83 200,1 | 177,1 |
| Qaradağ | 100 304,2 | 2,1 d. | Suraxanı | 44 107,5 | 125,9 |
| Nərimanov | 180 817,6 | 115,5 | Yasama | 170 690,1 | 87,9 |



**Xəzərdə yaradılmış süni torpaq sahələrinin icarəsi ilə bağlı yeni sənədlər təsdiqləndi.**

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələrinin icarəyə verilməsi ilə bağlı tələb olunan sənədlər müəyyənləşdirilib.

Bununla bağlı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 7 may tarixli 5 nömrəli Qərarı ilə "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən torpaq sahələrinin icarəyə verilməsi Qaydaları"na dəyişikliklər təsdiqlənib.

Bununla da "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanuna uyğun olaraq formalaşdırılmış sahələr də icarəyə verilən torpaq sahələrinin kateqoriyalarına əlavə olunub.

Bu torpaq sahələrinin icarəsi üçün hüquqi və ya fiziki şəxsin ərizəsi, eləcə də süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması barədə müvafiq qərar tələb olunacaq.



**Şuşada yaşayış binaları ilə bağlı daha bir LAYİHƏ - 49 milyon manat sərf olunacaq.**

Şuşa şəhərində bərpa, yenidənqurma və quruculuq işləri davam etdirilir.

Bu işlərin davamı kimi Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərinin D-3 yaşayış massivində nəzərdə tutulan yaşayış binalarının (1-ci mərhələ 10 ədəd bina) tikintisi işləri həyata keçiriləcək.

Belə ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsində artıq bununla bağlı müvafiq işlərə start verilib.

Qurum hazırda sözügedən işləri yerinə yetirəcək şirkəti müəyyənləşdirməkdədir.

Eyni zamanda qurum görüləcək işlərin 49,1 milyon manata başa gələcəyini proqnozlaşdırıb.

Qeyd edək ki, bir müddət əvvəl Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi D-4 yaşayış massivində (1-ci mərhələ) tikintisi nəzərdə tutulan 4, 5, 6, 7, 8, 9 nömrəli yaşayış binalarının tikintisi, eləcə də D-4 massivində 12 binanın tikintisi çərçivəsində (2-ci mərhələ) abadlıq, sahədaxili kommunikasiya, qurğulara aid mallar və xidmətlərin göstərilməsi ilə bağlı müvafiq işlərə başlayıb.



**ATMİA-nın Azərbaycan Nəqliyyat Ekspeditor Şirkətləri Assosiasiyası (ANEŞA) ilə birgə "Yük daşımalarda risklərin aradan qaldırılması" mövzusunda dəyirmi masa tədbiri keçirildi.**

27.05.2025-ci il tarixində, Bakı KOB Evində ATMİA-nın Azərbaycan Nəqliyyat Ekspeditor Şirkətləri Assosiasiyası (ANEŞA) ilə birgə "Yük daşımalarda risklərin aradan qaldırılması" mövzusunda dəyirmi masa tədbiri keçirildi. Tədbirdə yük daşımalarında rast gəlinən çətinliklər və onların həlli yolları müzakirə olundu. ATMİA üzvlərinə yüklərin problemsiz və təhlükəsiz şəkildə keçidi ilə bağlı ANEŞA ekspertləri məlumatlar verdi. Dəyirmi masada iştirak edənlərə təşəkkür edirik və bildiririk ki, üzvlərimizi maraqlandıran mövzularla bağlı faydalı tədbirlər davamlı olaraq keçiriləcək.



**Dashyunu.az şirkətinin "İnnovativ İnşaat Qarışıqları" adlı təqdimat tədbiri keçirildi.**

Sheraton Baku Intourist Hotel-də ATMİA-nın tam hüquqlu üzvü olan Dashyunu.az şirkətinin "İnnovativ İnşaat Qarışıqları" adlı təqdimat tədbiri keçirildi. Tədbirdə ATMİA üzvü olan tikinti və layihə-smeta şirkətlərinin rəhbərləri iştirak etdi. İştirakçılara üzvümüzün yeni məhsulları, onların tətbiq sahələri və inşaat proseslərində yaratdığı üstünlüklər haqqında ətraflı məlumat verildi. ATMİA sizin üçün B2B, B2G görüşləri, xidmət və məhsullarınızı şirkət rəhbərlərinə təqdimat tədbirlərinin yüksək səviyyədə təşkil edə bilər. Bununla bağlı ATMİA-ya müraciət edə bilərsiniz.



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: WARSAW FLOOR EXPO 2025**
**Tarixlər: 03 - 05 iyun 2025-ci il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Varşava Beynəlxalq Döşəmə və Səthi Materiallar Sərgisi

**Sərginin adı: AMM - ASTANA MINING AND METALLURGY CONGRESS 2025**
**Tarixlər: 04 - 05 iyun 2025-ci il,**
**Məkan: Hilton Astana, Astana (Qazaxıstan)**
AMM Sərgi və Konqresi mədənçıxarma və metallurgiya sənayesi üçün qabaqcıl texnologiyalar və innovativ inkişafları təqdim edir, burada iştirakçılar mineral ehtiyatların kəşfiyyatı, istehsalı və emalı üçün avadanlıq və texnologiyalarını təqdim edirlər.

**Sərginin adı: BUILDEXPO UZBEKISTAN 2025**
**Tarixlər: 04-06 iyun 2025-ci il,**
**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**
Beynəlxalq İxtisaslaşdırılmış Tikinti Sənayesi Sərgisi

**Sərginin adı: BAKU ENERGY WEEK**
**Tarixlər: 02-04 iyun 2025 -ci il,**
**Məkan: Bakı Ekspo Mərkəzi, Bakı, Azərbaycan**
13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi 2 - 4 İyun 2025

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN "AZƏRTERMİNALKOMPLEKS" BİRLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" Birliyi açıq tender elan edir.
Elanda "Dövlət Gömrük Komitəsinin Bakı Rəsmiləşdirmə Mərkəzinin tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanması" xidməti nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Leyla Hacıyeva, İnspektor
Email: leyla.hajiyeva.11200@customs.gov.az
Əlaqə telefonnu: +994 51 226 46 00



**"Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsi Tender Elan edir.**

"Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.

Elanda Məişət su sayğaclarının quraşdırılması üçün polad boru və mal-materialların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elşad Fərəcov, Şöbə müdirinin müavini – sektor müdiri
Email: elshad.ferecov@rsmx.gov.az
Əlaqə telefonnu: +994 12 377 07 70 (601)



**"AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXS TENDER ELAN EDİR.**

"Azərbaycan Dövlət İqtisad Universiteti" publik hüquqi şəxs açıq tender elan edir. Elanda Əsaslı təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aqil Əhmədov, Satınalmaların təşkili və təchizat şöbəsinin müdiri
Email: aqil.1983@bk.ru
Əlaqə telefonnu: +994 12 492 59 03 (1127)



**FHN 3 milyonluq tikinti işləri üçün tender keçirir.**

Fövqəladə Hallar Nazirliyinin Əsaslı Tikinti İdarəsi açıq tender elan edir. Elanda Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin 4 çıxışlı Zəngilan Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasının tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Orxan Bədəlov, Müqavilə və satınalmalar sektorunun böyük məsləhətçisi
Email: orkhan.badalov@fhn.gov.az
Əlaqə telefonu: +994 12 512 30 20



**"ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxsi açıq tender elan edir. Elanda Şuşa şəhərində D-3 yaşayış massivində nəzərdə tutulan yaşayış binalarının (1-ci mərhələ 10 ədəd bina) tikinti işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hikmət Quliyev, Satınalma üzrə mütəxəssis
Email : h.quliyev@atmu.edu.az
Əlaqə telefonnu: +994 12 564 42 33





**www.atmia.az**